# Ömrünü xalqına həsr edən görkəmli alim

**Azərbaycanın XX əsrdə yetişdirdiyi ən böyük şəxsiyyətlərdən biri olan Cavad Heyət 1925-ci il mayın 24-də Təbrizdə anadan olmuşdur. Həm Güney, həm də Şimali Azərbaycanda böyük şöhrət qazanmış Cavad Heyət türkologiya, tibb elmi və digər sahələrdə əvəzedilməz xidmətlər göstərmişdir.**



Cavad Heyətin atası Mirzə Əli məşrutə inqilabının fərmanını Nəcəfdən Təbrizə, oradan da Tehrana aparan heyətə rəhbərlik etmiş, buna görə də ailənin soyadı "Heyət" adlandırılmışdır. Mirzə Əli Heyət Qacar şahzadələrinin müəllimi, eyni zamanda onların etimad göstərdiyi şəxslərdən olmuşdur. Lakin Pəhləvi hakimiyyəti dövründə Heyət nəslinə münasibət bir qədər dəyişmişdir. Cavad Heyətin atası Məşrutə inqilabının iştirakçısı olmaqla yanaşı, həm də İran ədliyyəsinin qurucularından idi. O, Şərqin Nəcəf, Qahirə və İstanbul kimi elm və təhsil mərkəzlərində təhsil almış, 30 il İran ədliyyəsində işləmiş, müəyyən dövrlərdə İranın Baş prokuroru seçilmiş, ədliyyə naziri vəzifəsində də çalışmışdır. Əli Heyət hələ I Dünya müharibəsi illərində (1918) osmanlılarla birlikdə "İttihadi-islam" adlı cəmiyyət qurmuş, İran tərəfindən cəmiyyətin rəhbəri kimi fəaliyyət göstərmişdir. Qeyd edək ki, bu cəmiyyət 1919-cu ildə naxçıvanlıları ermənilərin şiddətli basqınlarından xilas etməyə nail olmuşdur.

Mirzə Əli Heyətin 9 övladından biri olan Cavad Heyət 1946-cı ildə İstanbulda əmək fəaliyyətinə başlamış, 1949-cu ilədək burada cərrahlıq klinikasında çalışmışdır. Sonralar ixtisasını təkmilləşdirmək məqsədilə Paris Universitetinin cərrahlıq kafedrasında işə başlamışdır. 1952-ci ildə yüksək dərəcəli cərrah ixtisasına yiyələnən Cavad Heyət İrana qayıtmış, 1953-cü ildən etibarən isə Tehranda Hidayət və Ədliyyə xəstəxanalarında cərrahlıq klinikaları təsis etmişdir. İranda eksperimental cərrahiyyənin təməli də məhz Cavad Heyət tərəfindən qoyulmuşdur. Onun istedadlı cərrah kimi şöhrət qazanmasında 1954-cü ildən etibarən ürək üzərində apardığı əməliyyatların da müstəsna rolu olmuşdur. Belə ki, Cavad Heyət 1954-cü ildə qapalı ürək əməliyyatı, 1962-ci ildə isə İranda ilk dəfə açıq ürək cərrahiyyəsini müvəffəqiyyətlə həyata keçirmişdir. Bu uğurundan sonra o, həmçinin İranda ilk dəfə ürək qapaqlarını dəyişdirmə, heyvanlarda ürək dəyişdirmə, Tehranda isə ilk dəfə insanda böyrək dəyişdirmə əməliyyatını uğurla aparmışdır. Bu nailiyyətlərinə görə Cavad Heyət "Birinci Dərəcəli Əmək Ordeni" ilə təltif olunmuşdur.

C.Heyət, həm də təbabətə dair qiymətli araşdırmaların müəllifi kimi də tanınır. Tibb sahəsində müəllifi olduğu kitablar mütəxəssislər tərəfindən daim yüksək qiymətləndirilmişdir. Cavad Heyət müxtəlif beynəlxalq elmi konfranslarda dərinməzmunlu məruzələrlə çıxış etmiş, alimin 100-dən çox məqaləsi müxtəlif tibb jurnallarında işıq üzü görmüşdür.

Cavad Heyət bütün həyat və fəaliyyətini əsasən cərrahiyyə sahəsində araşdırmalara həsr etmiş, İranda nəzəri və eksperimental cərrahiyyənin əsasını qoymuşdur. Alim, həmçinin elmi-nəzəri və əməli uğurlarına görə 1983-cü ildə Paris Beynəlxalq Cərrahlıq Akademiyasının üzvü seçilmiş, Tehranda 8 ildən artıq Azad İslam Universitetinin cərrahiyyə kafedrasının rəhbəri vəzifəsində çalışmışdır. Cərrahlıqla bağlı fars dilində üççildlik dərslik kitabının da müəllifi məhz Cavad Heyətdir.

Tibb sahəsindəki uğurları ilə nüfuz qazanan Cavad Heyət, həmçinin dostu doktor Həmid Nitqi ilə birlikdə İranda elmi türkologiyanın əsasını qoymuşdur.

Onun zəngin və çoxşaxəli fəaliyyətində Azərbaycan ədəbiyyatı tarixi, türk xalqlarının keçmişi, milli folklor və eləcə də islamşünaslığa dair tədqiqatların özünəməxsus yeri var. Müəllifi olduğu əsərlərdə Azərbaycan dilinin inkişaf mərhələləri, şifahi xalq ədəbiyyatı, ədəbiyyatşünaslıq, folklor, ədəbi tənqid, publisistika və fəlsəfə tarixinin ən müxtəlif məsələləri öz əksini tapmışdır. Alim bununla yanaşı, mədəniyyətin müxtəlif problemlərinin öyrənilməsi ilə bağlı ədəbi simpoziumlarda və türkoloji konfranslarda tarixi həqiqətlərə əsaslanaraq çıxış etmiş, çıxışları həmişə yüksək qiymətləndirilmişdir. İranda baş verən inqilab sonrası Cavad Heyət və doktor Həmid Nitqi Azərbaycan türkcəsinin elmi tarixi ilə məşğul olmuşlar. Cavad Heyət fars dilində çap etdirdiyi "Türk dilinin tarixi və ləhcələri" əsərini məhz İran dilçilik elminin və hakim ideologiyanın Azərbaycan dilinin özünəməxsus müstəqil və zəngin bir dil olmasını inkar etməsinə cavab olaraq qələmə almışdır. Bundan başqa, Cavad Heyət filologiya və türkologiya sahəsində "Azərbaycan ədəbiyyat tarixinə bir baxış", "Azərbaycan şifahi xalq ədəbiyyatı", "Türk dili və ləhcələrinin tarixi", "İki dilin müqayisəsi" və s. kitabların da müəllifidir.

Alim İranla Türkiyə arasında dostluq və mədəni əlaqələrin inkişafında da müstəsna xidmətlər göstərmiş, atası Mirzə Əli Heyət və qardaşı Firuz Heyət ilə birlikdə 1956-cı ildə İran-Türkiyə Dostluq və Kültür Cəmiyyətini yaratmışdır.

"Varlıq" jurnalının Cavad Heyətin həyatında mühüm rolu olmuşdur. İlk dəfə 1979-cu ildə İranda dərc edilən jurnal Azərbaycan və fars dillərində nəşr olunurdu. Jurnal 1979-cu il inqilabından sonra vətəndaşlara ana dilində jurnal nəşr etdirmək icazəsi verildiyi zaman təsis olunmuşdur. Jurnalın işıq üzü görməsində Cavad Heyətin rolu əvəzsizdir. O, bütün ömrü boyu jurnalı şəxsi vəsaiti hesabına nəşr etdirmişdir. Jurnaldakı yazıların 80 faizi Azərbaycan dilində, 20 faizi isə fars dilində çap olunurdu. Jurnalda, həmçinin Qarabağ problemi ilə bağlı məqalələr də yer almışdır. Cavad Heyət "Varlıq" jurnalında dərc olunan məqalələrində bütöv Azərbaycan xalqının milli şüurunu qidalandıra biləcək mövzuların əksəriyyətinə toxunmuşdur. Onun jurnalda 20 Yanvar faciəsi ilə bağlı yazdıqları xüsusi əhəmiyyət kəsb edir. Yazıda deyilir: "Ölkənin namuslu xalqının uzun əsrlərdən baş alıb gələn milli-tarixi istəklərinə ədalət və məntiq ilə cavab vermək yerinə güllə və tankla cavab verildi". Bundan başqa, Cavad Heyət 1993-cü ildə Kəlbəcərin işğalından sonra Süleyman Dəmirələ məktub yazmış və ondan yardım istəmişdir. Məktubda deyilir: "Mən bu sətirləri göz yaşlarımın qarşısını ala bilmədən yazıram və bu anda Allah-taaladan xalqımıza qurtuluş, ya da özümə ölüm istəyirəm... Məmləkətimizin başına gətirilən bu faciə böyük bir millət və ya güclü bir dövlət tərəfindən deyil, bütün tarix boyu himayəmiz altında dolanan və ədalətimiz sayəsində bütün insani haqlardan faydalanan ermənilər tərəfindən açılmışdır... Silahsız, ordusuz və əsarətdən yenicə çıxmış qardaşlarımızı yalqızmı buraxmalıyıq? Erməni-daşnak ordusunun onların yurdlarına həyasızcasına təcavüzünə, qadın və kişilərini, qoca və uşaqlarını acından öldürmələrinə tamaşaçımı qalacağıq? Bu, bizlərin şərəfinə, türklüyə və müsəlmanlığa, nəhayət insanlığa yaraşarmı?..".

Cavad Heyət, həmçinin Bakı Dövlət Universitetinin, Azərbaycan Tibb Universitetinin, Xəzər Universitetinin fəxri doktoru, Azərbaycan Milli Elmlər Akademiyasının, N.Tusi adına Azərbaycan Dövlət Pedaqoji Universitetinin fəxri professoru, Azərbaycan Cərrahları Elmi Cəmiyyətinin fəxri üzvü olmuşdur. Azərbaycan Yazıçılar Birliyinin M.F.Axundov adına mükafatına və "Dədə Qorqud" Assosiasiyasının təsis etdiyi "Məmməd Araz" mükafatına layiq görülmüşdür. Cavad Heyət, eyni zamanda Türk Dil Qurumunun fəxri sədri, eləcə də İstanbul Universitetinin fəxri doktoru idi. O, 2014-cü il avqustun 12-də Bakı şəhərində dünyasını dəyişmiş və İkinci Fəxri Xiyabanda torpağa tapşırılmışdır.

**Nəzrin ELDARQIZI,**
**"Respublika".**

Respublika.- 2023.- 24 may.- S.13.